42 (1297) 26 oktyabr - 2 noyabr 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## AZƏRBAYCAN İLƏ TÜRKİYƏ ARASINDA DOSTLUQ VƏ QARDAŞLIQ MÜNASİBƏTLƏRİ HƏRBİ SAHƏDƏ DƏ UĞURLA İNKİŞAF EDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul edib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyi vurğulanıb. Bu baxımdan ölkəmizin müxtəlif yerlərində "Mustafa Kamal Atatürk - 2023" Azərbaycan-Türkiyə birgə taktiki təliminin keçirilməsindən, təlim zamanı yüksək peşəkarlığın və bacarığın nümayiş etdirilməsindən məmnunluq ifadə olunub.

Türkiyə Respublikasının milli müdafiə naziri bu təlimlərin Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə təsadüf etməsinin rəmzi məna daşıdığını vurğulayıb.

Görüşdə Azərbaycanın ötən ay həyata keçirdiyi antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam bərpa olunduğu xüsusi qeyd edilib.

Söhbət zamanı Yaşar Gülərin Azərbaycana səfərinin əlaqələrimizin inkişafına, o cümlədən hərbi sahədə əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət etdiyi bildirilib, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## YOL İNFRASTRUKTURUNUN MÜASİR SƏVİYYƏYƏ ÇATDIRILMASI İSTİQAMƏTİNDƏ İCRA OLUNAN İŞLƏR DAVAMLI XARAKTER ALIB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli yeni avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Bakı-Rusiya Federasiyası ilə dövlət sərhədi ödənişli yeni avtomobil yolunun təməli 2017-ci ilin dekabrında Prezident İlham Əliyev tərəfindən qoyulub. Dövlətimizin başçısı yolun təməlinin qoyulduğu ilk gündən başlayaraq inşaat prosesinin gedişi ilə şəxsən və yerində maraqlanıb, tikinti işlərinin ən yüksək standartlara uyğun icra olunması ilə bağlı vaxtaşırı tapşırıqlarını verib.

Bildirilib ki, "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq yeni avtomobil yolunun Hacı Zeynalabdin Tağıyev qəsəbəsindən başlayaraq Rusiya sərhədinədək olan 150 kilometrlik hissəsi birinci texniki dərəcəyə uyğun inşa edilib.

Ödənişli yoldan istifadə tarifləri yeni müəyyən olunduğu üçün hazırda həmin tariflərin ödəniş sisteminə inteqrasiyası həyata keçirilir. Ödənişli yoldan istifadə xüsusi çip yerləşdirilən kart vasitəsilə həyata keçiriləcək. Bu kartı yolun giriş və çıxışlarından, yaxın gələcəkdə isə şəhər və rayonlarda müxtəlif satış nöqtələrindən əldə etmək mümkün olacaq.

Ödənişli yoldan keçid kartının ilk nümunəsi Prezident İlham Əliyevə təqdim olunub.

## SUMQAYIT KİMYA SƏNAYE PARKINDA YENİ İSTEHSAL MÜƏSSİSƏLƏRİ AÇILIB



***Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Prezidentinin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılıb. Bu, Azərbaycanda yaradılmış ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır.***

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına Sumqayıt Kimya Sənaye Parkında görülən işlər barədə məlumat verib.

Bildirilib ki, hazırda ərazisi 583,5 hektar təşkil edən sənaye parkında neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir. Parkda ümumi investisiyaların həcmi təqribən 5,8 milyard manata yaxın olan 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 5,4 milyard manatdan çox investisiya yatırılıb. Qeydiyyata alınmış 38 rezidentdən artıq 20-si fəaliyyət göstərir. Bu gün "Azərbaycan Vanhong Ceramics Co." MMC, "Novus Plastica" MMC və "UPI - Universal Packing Industry" QSC-nin açılışı ilə Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı 23-ə çatır.

İndiyədək Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən ümumilikdə 9,5 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da 3,3 milyard manatdan çox hissəsi - təqribən 35 faizi ixracın payına düşür. Sənaye parkında 2023-cü ilin 9 ayında 2,1 milyard manatlıq məhsul istehsal edilib ki, bunun da 674,4 milyon manatlıq hissəsi ixrac olunub.

Parkda istehsal olunan məhsullar Türkiyə, Rusiya, Ukrayna, Belarus, Çin, Tayvan, Bolqarıstan, Rumıniya, Polşa, Niderland, İtaliya, Makedoniya, Litva, Avstriya, Estoniya, Danimarka, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Gürcüstan, Qırğızıstan, Braziliya, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Livan, İraq, Yaponiya, Amerika Birləşmiş Ştatları, Kanada və digər ölkələrə ixrac olunub.

* * * *

Prezident İlham Əliyev əvvəlcə parkda "Çinar-Servis" İstehsal-kommersiya firmasının Texniki qazların istehsalı müəssisəsinin təməlqoyma mərasimində iştirak edib.

Məlumat verilib ki, "Çinar-Servis" 2022-ci ilin mayında Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçib. Şirkət sıxılmış azot, oksigen, arqon və maye helium qaz məhsullarının istehsalı ilə məşğul olacaq.

İnvestisiya həcmi 13,3 milyon manat olan layihə çərçivəsində 70 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur. "Çinar-Servis" tərəfindən istehsal olunan sənaye qazları ölkəmizdə bu məhsullara tələbatı ödəməklə yanaşı, Gürcüstana, Türkiyəyə, Rusiyaya da ixrac ediləcək.

* * * *

Sumqayıt Kimya Sənaye Parkının rezidentlərindən biri də "Novus Plastica" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Prezident İlham Əliyev "Novus Plastica" MMC-nin Polimer qatqıları istehsalı müəssisəsinin açılışında iştirak edib.

Bildirilib ki, "Novus Plastica" MMC-yə 2020-ci ilin avqustunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Sənaye parkının 3,5 hektar ərazisində inşa edilmiş müəssisədə iki növ məhsulun – polietilen borular üçün qara karbon konsentrat qatqısının və sənaye sahəsində qablaşdırmada istifadə edilən polietilen örtüklərin istehsalı həyata keçirilir. Qeyd edək ki, "Novus Plastica" MMC tərəfindən "SOCAR Polymer" MMC-nin və "Azərikimya" İstehsalat Birliyinin məhsullarından xammal kimi istifadə olunacaq.

* * * *

Sonra Prezident İlham Əliyev "Universal Qablaşdırma Sənaye" Qapalı Səhmdar Cəmiyyətinin Qablaşdırma məhsulları istehsalı müəssisəsinin açılışında iştirak edib.

Diqqətə çatdırılıb ki, sənaye parkının bir hektar ərazisində inşa edilmiş müəssisədə qablaşdırmada istifadə olunan qofro karton, fayl və digər məhsullar istehsal ediləcək. İtaliya və Çin texnologiyalarının tətbiq edildiyi müəssisədə 20 çeşiddə məhsul istehsal olunacaq.

* * * *

Daha sonra "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin açılışı olub.



Prezident İlham Əliyev müəssisədə yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, sənaye parkının 20 hektardan çox ərazisində Çinin qabaqcıl texnologiyalarının tətbiqi ilə yüksəkkeyfiyyətli, müxtəlif ölçülərdə keramik plitələrin istehsalı həyata keçiriləcək. Yüz faiz Çin kapitallı müəssisə üçün investisiya dəyəri 40 milyon ABŞ dolları, işçi sayı 400 nəfər nəzərdə tutulsa da, hazırda müəssisəyə 50 milyon ABŞ dolları məbləğində investisiya yatırılıb və 484 nəfər işlə təmin olunub. İllik istehsal gücü 18 milyon kvadratmetr olan müəssisənin məhsulları daxili bazarda satılmaqla yanaşı, region və MDB ölkələrinə ixrac olunacaq.

* * * *

Daha sonra "Kartaş Kimya" MMC-nin Tikinti kimyəvilərinin istehsalı müəssisəsinin təməli qoyulub.

Diqqətə çatdırılıb ki, "Kartaş Kimya" MMC-yə 2022-ci ilin iyulunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Şirkət tərəfindən sənaye parkının 2,5 hektar ərazisində müxtəlif tikinti kimyəvilərinin istehsalını həyata keçirəcək müəssisə inşa ediləcək. İnvestisiya dəyəri 17 milyon manat olan müəssisədə 250 daimi iş yerinin yaradılması nəzərdə tutulur. İstehsal olunan məhsullar daxili bazara satılmaqla yanaşı, Türkiyə və MDB ölkələrinə ixrac ediləcək.

* * * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2 saylı Sumqayıt Şəhər Xəstəxanasının yeni binasının açılışında iştirak edib.

# Azərbaycan ilə Macarıstan arasında uğurlu əməkdaşlıq məmnunluq doğurur



“Azərbaycan ilə Macarıstan arasında yüksək səviyyəli dövlətlərarası əlaqələr və uğurlu əməkdaşlıq məmnunluq doğurur. Möhkəm dostluğun və tərəfdaşlığın yaxşı nümunəsi olan, qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərimizin gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi bizi olduqca sevindirir”.

Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orbana bu ölkənin milli bayramı münasibətilə ünvanladığı təbrik məktubunda yer alıb.

Ölkələrimizin beynəlxalq və regional təşkilatlar çərçivəsində konstruktiv qarşılıqlı fəaliyyətini və dəstəyini, aktual qlobal və regional məsələlərdə oxşar mövqelərdən çıxış etməsini xüsusi qeyd edən dövlətimizin başçısı bildirib: *“Əminəm ki, mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə ölkələrimiz arasında genişlənmiş strateji tərəfdaşlığın, həm ikitərəfli qaydada, həm də çoxtərəfli müstəvidə, xüsusilə də Türk Dövlətləri Təşkilatı çərçivəsində qarşılıqlı səmərəli əməkdaşlığımızın daha da dərinləşməsinə nail olacağıq”.*

# “Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin qısa müddətdə razılaşdırılması üçün real şanslar var”

***Oktyabrın 24-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasının xarici işlər nazirinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.***



Xarici İşlər Nazirliyindən bildirilib ki, görüşdə Azərbaycan və Ermənistan arasında sülh prosesinin perspektivləri, regionda mövcud vəziyyət və son inkişaflar, eləcə də Tehranda “3+3” regional platforması çərçivəsində keçirilmiş görüşün nəticələri müzakirə olunub.

Nazir Ceyhun Bayramov, öhdəliklərə zidd olaraq son 3 il ərzində Azərbaycan ərazisindən çıxarılmayan qanunsuz erməni silahlı qüvvələrinə qarşı həyata keçirilmiş anti-terror tədbirləri nəticəsində Azərbaycanın öz suveren ərazilərinə nəzarəti tam olaraq təmin etməsindən sonra, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin qısa müddətdə razılaşdırılması üçün real şansların olduğunu diqqətə çatdırıb.

Qarabağın erməni sakinlərinin Azərbaycanın qanunvericiliyi çərçivəsində ölkəmizin ərazisində Azərbaycan vətəndaşı kimi yaşaması üçün bütün imkanların yaradıldığı, bunun üçün reinteqrasiya məqsədilə müvafiq portalın fəaliyyət göstərdiyi qeyd edilib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanla Ermənistan arasında münaqişə tənzimlənib

“Azərbaycan ilə Ermənistan arasında münaqişə tənzimlənib, indi tərəflər üçün münasibətlərin tam normallaşdırılması üzrə bundan sonrakı praktik addımlar qalır”.



Bu barədə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov “3+3” formatında görüşün yekunlarına dair jurnalistlərə bildirib.

“Hər iki tərəf razılığa gəlib ki, Qarabağ Azərbaycana məxsusdur, bu isə əsas həll olunmamış problem idi. İndi, əlbəttə ki, münasibətlərin tam normallaşdırılması, ilk növbədə, sülh sazişinin hazırlanması, sərhədlərin delimitasiyası və hər hansı bir maneə olmadan nəqliyyat, iqtisadi əlaqələrin qurulması üzrə əməli addımlar qalır”, - deyə Rusiya xarici işlər naziri bildirib və qeyd edib ki, bu cür razılaşma Rusiya, Azərbaycan və Ermənistan rəhbərlərinin görüşlərində əldə edilib.

Azərbaycan ilə Ermənistan arasında sərhədin delimitasiyası prosesi barədə danışan S.Lavrov xatırladıb ki, bunun üçün komissiya yaradılıb.

*“Bütün ekspertlərə məlumdur ki, delimitasiyanı müzakirə etmək və razılaşdırmaq üçün lazım olan hər şey, o cümlədən sovet dövründən qalan kartlar Rusiya Federasiyasındadır. Biz praktik delimitasiyaya başlamaq üçün hər zaman həqiqi kömək göstərməyə hazırıq”,* - deyə rusiyalı nazir əlavə edib.

# Korsika xalqının fundamental hüquq və azadlıqlarının təmin olunmasına dəstək məqsədilə Milli Məclisdə yeni qrup yaradılıb

Korsika xalqının öz milli kimliyinin bərpa edilməsi, fundamental hüquq və azadlıqlarının təmin olunması istiqamətində mübarizəsinə dəstək məqsədilə Azərbaycan Respublikası Milli Məclisində yeni qrup yaradılıb.

Bildirilib ki, dəstək qrupunun məqsədi Korsika xalqının haqlı tələblərinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, Fransa müstəmləkəçiliyinin dağıdıcı təsirlərinə qarşı mübarizəsi uğrunda beynəlxalq səylərin birləşdirilməsidir.

Qrupa Milli Məclisin deputatları Tural Gəncəliyev, Cavanşir Feyziyev, Şahin İsmayılov və Azər Kərimli daxildir.



# Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Almaniya Bundestaqının Xarici əlaqələr komitəsinin sədrinin bəyanatına etirazını bildirib

“Almaniya Bundestaqının Xarici əlaqələr komitəsinin sədri Maykl Rotun İrəvana səfəri zamanı verdiyi qeyri-obyektiv, mövcud reallıqları təhrif edən bəyanatları təəssüf doğurur”.

Bu barədə Azərbaycan Respublikasının Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin etiraz bəyanatında bildirilib.

Qeyd edilib ki, növbəti dəfə Ermənistan rəhbərliyinin havadarlarının öz yalan iddiaları ilə beynəlxalq ictimaiyyəti aldatmasının şahidi oluruq.

Təəssüflər olsun ki, Almaniya Bundestaqındakı destruktiv qüvvələrin təsiri və təzyiqi Azərbaycana qarşı bu cür qeyri-obyektiv addımların atılmasına və bəyanatların səsləndirilməsinə rəvac verir. Bu fakt öz-özlüyündə həmin bəyanatlarda irəli sürülən iddiaların nə dərəcədə əsassız olduğunu bariz şəkildə nümayiş etdirir.

*“Verilən bəyanatlar bir sıra maqamlarına görə, xüsusilə narazılıq doğurur. Azərbaycanın Qarabağ bölgəsinin adının təhrif edilməsini ölkəmizin ərazi bütövlüyünə qarşı atılmış addım kimi qəbul edirik. Almaniya Bundestaqına BMT-nin ixtisaslaşmış qurumlarının bölgəyə iki dəfə səfər etdiyini və mülki əhaliyə qarşı heç bir zorakılıq hallarının baş vermədiyini öz hesabatlarında təsdiqlədiyini xatırlatmaq istərdik. Biz, öz növbəmizdə, almaniyalı həmkarımızın Ermənistanın 30 il ərzində Azərbaycana qarşı törətdiyi hərbi cinayətlərlə bağlı, o cümlədən həm Ermənistanda, həm də Azərbaycanda mədəni abidələrin dağıdılması, tarixi irsin silinməsinə görə Ermənistana sanksiyaların tətbiq olunması üçün çağırış etmədiyi halda, Azərbaycanı sanksiyalarla hədələməsini siyasi riyakarlıq kimi qiymətləndirir, ikili standartların bariz nümunəsi kimi qəbul edirik.*

*Azərbaycan Respublikasının Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi olaraq Almaniya Bundestaqının Xarici Əlaqələr Komitəsinin sədri Maykl Rotun verdiyi bəyanatları bir daha qətiyyətlə rədd edirik”,* - deyə vurğulanıb.

# “Azərbaycan ərazilərinin işğalına son qoyulması münasibətlərin normallaşması üçün yeni perspektiv açıb”

“Azərbaycan ərazilərinin işğalına son qoyulması və suverenliyimizin tam bərpası Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması üçün yeni perspektiv açıb”.

Bunu oktyabrın 23-də xarici işlər naziri Ceyhun Bayramov İran İslam Respublikasının Tehran şəhərində “3+3” regional məşvərət formatının nazirlər səviyyəsində keçirilən birinci görüşündə çıxışında deyib.

Nazir Azərbaycan Ermənistan arasında münasibətlərin bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət əsasında normallaşmasının təkcə bu ölkələrin xeyrinə olmayacağını, həm də əməkdaşlıq və tərəqqi üçün istifadə edilməmiş potensialdan faydalanmağa imkan yaradacağını bildirib. O, Azərbaycanın Ermənistanla bir-birinin legitim maraqlarına qarşılıqlı hörmət əsasında ədalətli və bərabərhüquqlu sülh təklifini bir daha diqqətə çatdırıb və sülh müqaviləsi çərçivəsində məsələlərin tezliklə yekunlaşması məqsədilə Ermənistan tərəfindən qarşılıqlı addımlar və konstruktiv yanaşma gözlədiyimizi, tam regional normallaşma üçün bu unikal şansın bir daha əldən verilməyəcəyinə ümidvar olduğumuzu diqqətə çatdırıb.

# Milli Məclisin iclasında 16 məsələ müzakirə edilib

Oktyabrın 24-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib.

Deputatlar son vaxtlar Qərbin, xüsusən Avropanın Azərbaycanın şanlı Qələbəsini həzm edə bilməyən bəzi qüvvələri tərəfindən ölkəmizə qarşı sərgilənən qərəzli və ədalətsiz mövqeyə etirazlarını bildirib, bunu təzyiq kimi dəyərləndiriblər. Xüsusən Fransanın Azərbaycanı qaralama kampaniyasında canfəşanlığı onun Cənubi Qafqazda nüfuz sahibi olmaq üçün apardığı çirkin siyasətin təzahürü kimi qiymətləndirilib.

Sonra gündəlikdəki məsələlər ətrafında müzakirələr aparılıb.

Sahibə Qafarova bildirib ki, iclasda 16 məsələ müzakirə olunacaq, ilk 12 məsələ üçüncü oxunuşda olan qanun layihələridir.

Komitə sədri Sadiq Qurbanov “Energetika haqqında” qanun layihəsinin birinci və ikinci oxunuşda geniş müzakirə edildiyini və müzakirələrin nəticəsində layihədə bir sıra texniki xarakterli düzəlişlərin, dəqiqləşdirmələrin aparıldığını bildirib. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli “Lisenziyalar və icazələr haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Mülki Prosessual Məcəllədə, İnzibati Xətalar Məcəlləsində, “Notariat haqqında” və “İnzibati icraat haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verən Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov sənədə dair heç bir rəy və təklifin daxil olmadığını bildirib və layihənin səsə qoyulmasını xahiş edib. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Parlamentin sədri növbəti iki məsələnin prezidentin bir məktubu ilə Milli Məclisə daxil olduğunu bildirib. Qeyd edib ki, bu məsələlər “Polis haqqında” qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) və Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə”-də dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələridir.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Gündəliyin 6-cı məsələsi olan və “Müharibə veteranı" adı almış şəxslərin dövlət peşə təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqlarının dövlət tərəfindən ödənilməsini nəzərdə tutan “Peşə təhsili haqqında” Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev məlumat verib. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda növbəti məsələ ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. O bildirib ki, “Dövlət rüsumu haqqında” Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsində arxiv sənədlərinin surətlərinin sürətləndirilmiş qaydada verilməsinə görə tutulan dövlət rüsumlarının ləğv edilməsi təklif olunub. Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

“Ovçuluq haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul edilib.

“Sosial xidmət haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

“Poçt haqqında” Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Gündəliyin 11-ci məsələsi olan “Dövlət rüsumu haqqında” Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Əmək Məcəlləsində və “Əmək pensiyaları haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib. Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

# Milli intibahımızın baş memarı



(əvvəli ötən sayımızda)

### Neft gəlirlərindən səmərəli istifadə strategiyası

Enerji siyasətinin uğurları həm də Azərbaycan iqtisadiyyatının inkişafının əsas lokomotivi olmaqla, respublikamızda həm iqtisadi, həm də sosial sfera üzrə prioritetlərin uğurla reallaşmasına xidmət etməkdədir.

Cənab İlham Əliyevin rəhbərliyi ilə bu illər ərzində qazanılan iqtisadi uğurların bir qisminə nəzər salaq: 20 ildə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıb. Gələn il Azərbaycanın dövlət büdcəsinin gəlirləri 34 milyard manatdan artıq, xərclərimiz isə 36 milyard manata yaxın olacaq. Bu, 2003-cü illə müqayisədə təxminən 20 dəfə artım deməkdir. Azərbaycanın müdafiə xərcləri 2003-cü ildə cəmi 150 milyon ABŞ dollarına bərabər idisə, artıq bu rəqəm 5 milyard manatdan çoxdur və gələn il bir qədər də artacaq. 20 il əvvəl regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrasına başlayarkən Azərbaycan cəmi 1,8 milyard dollar valyuta ehtiyatlarına sahib idi. Bu il isə valyuta ehtiyatlarımız 67 milyard ABŞ dollarına çatıb ki, bu da təxminən 37 dəfə artım deməkdir.

Bu dövrdə Xəzərdə ən böyük liman olan Ələt Beynəlxalq Dəniz Limanı salınıb, respublikamızda altısı beynəlxalq olmaqla, yeddi aeroport tikilib, Oğuz-Qəbələ-Bakı su kəməri çəkilib, orbitə 3 peyk çıxarılıb, yeni elektrik stansiyalarının inşası nəticəsində 3 min meqavatdan artıq yeni generasiya gücü yaradılıb, ölkə üzrə qazlaşdırmanın səviyyəsi 51 faizdən 100 faizə yaxınlaşıb, 21 min kilometrə yaxın avtomobil yolu tikilib və ya yenidən qurulub.

Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi uzunmüddətli iqtisadi inkişaf strategiyası ölkənin regionlarının davamlı və tarazlı inkişafının təmin olunmasını, nəzərdə tutur. Hələ 2003-cü ildə xalqın etimadını qazanaraq ölkə Prezidenti seçildikdən sonra cənab İlham Əliyevin qarşıya qoyduğu məqsədlərdən biri ölkədə aparılan islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatında qazanılan uğurların miqyasını daha da genişləndirmək, bütün regionları sosial-iqtisadi baxımdan yüksək səviyyədə inkişaf etdirmək idi. Çünki iqtisadiyyatın regional baxımdan inkişafının zəifliyi ölkədə ümumən sosial-iqtisadi, demoqrafik və ekoloji vəziyyətə mənfi təsir göstərir, əhalinin iş dalınca ölkə paytaxtına axınını sürətləndirirdi. Qarşıya qoyulan yeni hədəflərə çatmaq üçün isə regionlarda mövcud potensialdan istifadənin səmərəsini artırmaq, yeni iş yerlərinin açılmasını, iqtisadiyyatın və sənayenin ayrı-ayrı sahələrinin, aqrar sektorun tərəqqisini, kənd təsərrüfatı məhsullarının emalının genişləndirilməsini təmin etmək, bir sözlə, kompleks inkişafa nail olmaq lazım idi.

Bu vəzifələrin yerinə yetirilməsində, o cümlədən ölkənin regionlarının sosial-iqtisadi inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları böyük əhəmiyyət kəsb edir. Ötən dövr ərzində regionların inkişafı istiqamətində 4 dövlət proqramı qəbul olunmuşdur. 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır.

***Dövlət Proqramları çərçivəsində görülmüş işlər ölkədə həyata keçirilən ümumi sosial-iqtisadi inkişaf siyasətinə ciddi dəstək vermiş və nəticədə ötən 20 ildə Azərbaycan iqtisadiyyatı real ifadədə 3,4 dəfədən çox, sənaye potensialı 3 dəfəyə yaxın artmışdır. 2 milyondan artıq yeni iş yeri yaradılmışdır. Ötən 20 ildə Azərbaycan üçün xarakterik olan iqtisadi uğurlardan biri qlobal kataklizmlərin daha da dərinləşdiyi həssas dönəmlərdə belə öz yolu ilə inamla addımlamasıdır.*** Bunun da əsas səbəblərindən biri dövlət proqramlarının icrası nəticəsində yaradılmış iqtisadi potensialdır. Beynəlxalq iqtisadi geriləmənin yaşandığı və sınaq dövrü olan illərdə də Azərbaycan böhrandan layiqincə çıxıb və həyata keçirilən iqtisadi islahatlarla öz inkişafının yeni mərhələsinə qədəm qoyub.

### Regionun lider dövləti və nüfuzlu prezident

Ötən 20 ilin ən mühüm uğurlarından biri Azərbaycanın bir dövlət kimi müstəqilliyini və dünya birliyində öz yerini möhkəmləndirməsi, beynəlxalq aləmdə söz sahibinə çevrilməsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı inkişaf yoluna çıxarmaqla yanaşı, regional və beynəlxalq miqyasda nüfuzunu daha da artırıb. Azərbaycan dünyanın sayılıb-seçilən, hörmət olunan, etimad göstərilən dövlətinə çevrilib. Bu gün regionun lideri olan Azərbaycan beynəlxalq əhəmiyyətli məsələlərdə də söz sahibidir. Ona görə Avropanın bir çox dövlətləri Cənubi Qafqazın lideri olan Azərbaycanla strateji tərəfdaş oluqlarını elan ediblər. Bunun da əsas səbəblərindən biri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tamamilə müstəqil siyasət yürüdən ölkə olmasıdır.

Beləliklə, Prezident İlham Əliyev ölkəmizin inkişafı ilə yanaşı, həm də dünya birliyində onun mövqelərini davamlı şəkildə gücləndirib. Dövlət başçısının həyata keçirdiyi tam müstəqil və qətiyyətli xarici siyasət regionda cərəyan edən siyasi, iqtisadi proseslərin axarına da həlledici təsir göstərir.

Məhz buna görədir ki, fəaliyyəti ilə ölkə cəmiyyətindən daim dəstək alan, gərgin qlobal münasibətlər şəraitində istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarının sadiq təminatçısı kimi çıxış edən Prezident İlham Əliyev beynəlxalq miqyasda da əsl lider olaraq ehtiramla qarşılanır. Məsələn Serbiya Prezidenti Aleksandar Vuçiçin İlham Əliyevin ünvanına söylədiyi «sizin fəaliyyətiniz daha məhsuldardır», «bilirəm ki, ölkəmizə səfərinizi öz gündəliyinizə salmaq nə dərəcədə çətin idi», «bu gün Prezident Əliyevdən bir çox məsələləri öyrəndik», «Prezident Əliyev və Azərbaycan təkcə bizə münasibətdə yox, hər kəsə münasibətdə etibarlı tərəfdaşdır», «onun sözü bizim üçün yetərlidir. Çünki biz onun sözünə hər hansı imzadan daha çox inanırıq. O, nəyi deyirsə, mənim üçün kifayətdir» kimi ifadələr Azərbaycan Prezidentinin şəxsiyyətinə, fəaliyyətinə, etibarlı tərəfdaş olmasına verilən ali qiymətlərdir və yüksək ehtiramın təcəssümüdür.

Baş nazir Viktor Orbanın Prezident İlham Əliyevlə bağlı fikirləri də dövlətimizin başçısına yüksək beynəlxalq nüfuzun növbəti təsdiqidir. Viktor Orbanın, «Mən son on ildə Prezident Əliyevdən o qədər çox şey öyrənmişəm ki, olduqca mürəkkəb mühitdə ölkəyə necə yaxşı rəhbərlik etmək lazımdır. Əfsuslar olsun ki, onun bütün bildiklərini öyrənə bilmədim. Çünki biz radikal tərəfə meyilliyik və o, daha mülayim baxışları ilə tanınan siyasi xadimdir. Mən ondan beynəlxalq arenada mülayim şəkildə necə daha da uğurlu olmağı öyrənməliyəm», sözləri Prezident İlham Əliyevin qlobal nüfuzuna verilən ali qiymətin, dövlətimizin başçısının şəxsiyyətinə olan yüksək ehtiramın göstəricisidir. Macarıstan Baş nazirinin bu sözləri Prezident İlham Əliyevin geopolitik məkanda proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən lider olması barədə söylənən fikirlərin davamıdır.

Dövlətimizin başçısının hadisələrə baxışı, münasibəti hər bir beynəlxalq tədbirin diqqətlə izlənilən məqamlarındandır. Bu mənada fəxarət doğuran məqamlardan biri də, Prezident İlham Əliyevin dünyada dərin analitik təfəkkürə və məqsədyönlü, düşünülmüş siyasi iradəyə malik lider kimi qəbul olunmasıdır.



### İctimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır

Prezident İlham Əliyevin fəaliyyətinin ən qabarıq tərəflərindən biri də ictimai-siyasi sabitliyin qorunub saxlanılması, daha da möhkəmləndirilməsi, cəmiyyət həyatının təhlükəsizliyinin təmin olunmasıdır. Lakin bizi bu günlərə gətirən yollar heç də həmişə hamar olmayıb. Ən azından müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan qüvvələrin başıpozuq fəaliyyətlərinin nəticəsində Azərbaycanda təhlükəsizliyə təhdidlərin baş alıb getməsi çoxunun yaddaşında dərin iz buraxıb. Yalnız ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkədə sabitlik bərqərar edildi. Son 20 ildə bu siyasət uğurla davam etdirilib və bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır. Təsadüfi deyil ki, Bakı şəhəri və bütövlükdə respublikamız dünyanın ən təhlükəsiz diyarlarından biri kimi tanınır. Bu günün reallıqları ondan ibarətdir ki, Azərbaycan yerləşdiyi bölgənin ən sabit ölkəsidir. Başqa bir həqiqət odur ki, ölkə əhalisi mövcud siyasi kursu dəstəkləyir və bu da vətəndaş həmrəyliyinin təmin olunmasında əsas şərtlərdən biridir. Bütün bunlar isə zəncirvari şəkildə bir-birini tamamlayaraq, bütövlükdə Azərbaycanın dövlətçiliyinin güclənməsinə, müstəqilliyimizin möhkəmlənməsinə, ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsinə və nəhayət cəmiyyətimizdə bərqərar edilmiş sabitliyin və vətəndaş həmrəyliyinin əbədi olmasına mühüm töhfələr verir.

***Ölkədə əldə edilən hər bir uğur vətəndaşların Prezident İlham Əliyevə olan etimadını daha da artırıb, milli həmrəyliyi daha sıx edib. İndiyədək keçirilmiş bütün yerli və xarici rəy sorğularının nəticələri Prezident İlham Əliyevin yüksək reytinqini dəfələrlə sübuta yetirib. Bunun da əsas səbəbi cənab prezidentin fəaliyyət və bu fəaliyyətin xalq tərəfindən böyük razılıq və minnətdarlıqla qarşılanmasıdır.*** Təsadüfi deyil ki, bütün prezident seçkiləri seçicilərin mütləq əksəriyyətinin öz səslərini cənab İlham Əliyevə verməsi ilə yadda qalıb. İnkişaf proseslərinin davamlı olmasını arzulayan Azərbaycan xalqı hər dəfə seçkilərdə İlham Əliyevə dəstəyini nümayiş etdirib. Bu dəstək Azərbaycan cəmiyyətinin mövcud siyasi kursa inam və rəğbətinin əyani təcəssümü olmaqla, mütləq əksəriyyətin istək və arzusunu özündə əks etdirir.

### Şəffaf idarəçilik, xalqa verilən hesabatlar

Əlbəttə, hər bir uğur Prezident İlham Əliyevin siyasi kursunun təntənəsi olmaqla yanaşı, həm də dövlətimizin başçısının liderlik keyfiyyətlərinin nəticəsi kimi nəzərdən keçirilir. Eyni zamanda, biz Azərbaycanın yüksəlişi, xüsusən iqtisadi inkişafı barədə danışarkən əsasən ənənəvi amillərdən söz açmışıq. Bunlar ölkə rəhbərliyinin yürütdüyü düşünülmüş və elmi əsaslara söykənən inkişaf strategiyası, həyata keçirilən islahatların uğurlu nəticə verməsi, dövrün çağırış və tələblərindən irəli gələrək islahatların davamlı olması, iqtisadi potensialın hərəkətə gətirilməsi, regionların tarazlı inkişafının təmin edilməsi, neft gəlirlərindən səmərəli istifadə olunması, xüsusən bu gəlirlərin qeyri-neft sektoruna və insan kapitalına yönəldilməsi, sənayeləşmə siyasəti və sairdir. Amma etiraf etməliyik ki, bir məsələyə o qədər də yaxından və ya yetərincə diqqət yetirməmişik. Bu da Azərbaycan cəmiyyətində bərqərar olunan konsensus və həmrəylik, ölkə ictimaiyyətinin Prezident İlham Əliyevin ətrafında sıx həmrəyliyidir. Bütün bunların təmin olunmasında isə Prezident İlham Əliyevin vətəndaşlarla, ictimaiyyət nümayəndələri ilə ünsiyyəti, keçirdiyi görüşlər əvəzsiz rol oynayır.

Politoloji nəzəriyyələrə əsasən, siyasi uğur və nailiyyətləri şərtləndirən mühüm amillərdən biri sosial məsuliyyət prinsipidir. Hakimiyyət cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqlik nümayiş etdirəndə xalqa layiqli xidmət məramını əsas tutmaqla ölkənin bütün resurslarını strateji məqsədlərin gerçəkləşdirilməsi naminə səfərbər edə bilir. Bu baxımdan səmərəli və şəffaf idarəçiliyi hökumətin mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmiş Azərbaycan Prezidenti İlham Əliyevin idarəçilik konsepsiyasında bu prinsip daim önə çəkilir.

Hələ 2003-cü ildə prezident kimi hökumətin ilk iclasında çıxışı zamanı "Biz xalqın xidmətçisiyik", - deyən cənab İlham Əliyev ötən 20 ildən artıq müddətdə ictimaiyyətin görülmüş işlər, qarşıda duran məqsədlər və həyata keçiriləcək layihələr barədə məlumatlandırılmasını zəruri saymışdır. Bu cür hesabatlar, hər rüb və il üzrə əldə edilmiş nailiyyətlərin qiymətləndirilməsi, uğurların ictimaiyyətə düzgün, obyektiv çatdırılması, mövcud problemlər ətrafında müzakirələrin aparılması, həmin problemlərin həlli yollarının tapılması baxımından səmərəli vasitəyə çevrilmişdir. Səmərəli, məqsədyönlü və praqmatik idarəetmənin bariz təcəssümü kimi Prezident İlham Əliyev xalq qarşısına daim yeni uğurlarla, inkişafı stimullaşdıran perspektivli layihələrlə çıxır. Dövrün tələblərinə uyğun formalaşdırılmış bu idarəetmə sistemi respublikanın tərəqqisinə, sabitliyə, vətəndaş sülhünə yönəlmiş mühüm qərarlara, habelə bu qərarların icrasına xalqla birgə nəzarət formuluna əsaslanır.

Bu baxımdan İlham Əliyevin fəaliyyətində diqqətəlayiq ən üstün cəhətlərdən biri onun siyasi hakimiyyəti xalqa layiqli xidmət vasitəsi kimi dəyərləndirməsi, hökumətin fəaliyyəti ilə bağlı cəmiyyətə müntəzəm hesabatların verilməsini idarəçilikdə demokratik ənənələrdən biri kimi formalaşdırmasıdır. Bu cür hesabatlar həm də konkret dövr ərzində qazanılmış nailiyyətlərin qiymətləndirilməsi, əldə edilmiş uğurların ictimaiyyətə düzgün, obyektiv çatdırılması, gündəmdəki məsələlər və problemlər ətrafında müzakirələrin aparılması və onların həlli yollarının tapılması üçün səmərəli vasitəyə çevrilib.

Əlbəttə ki, inkişafın təməlində dayanan əsas şərtlərdin biri cəmiyyətimizdəki konsensusdur. Bu konsensusun təmin olunmasında isə siyasi-iqtisadi amillərlə yanaşı, Prezident İlham Əliyevin vətəndaşlarla görüşləri və vətəndaş müraciətlərinə çevik reaksiyası əsas rol oynayır. Müxtəlif tədbirlər çərçivəsində, bayramlarda, rayonlara səfərlər zamanı əhali ilə birbaşa təmasda olan prezident cəmiyyəti düşündürən hər bir məsələdə xalqla həmrəylik nümayiş etdirərək, qaldırılan məsələlərin həlli ilə bağlı operativ tədbirlər görür.

Xatırladım ki, ümummilli lider Heydər Əliyevin hələ sovet dövründə idarəçilikdə təməlini qoyduğu mütərəqqi ənənələrdən biri də məhz xalq arasına çıxmaqla, sadə vətəndaşlarla canlı ünsiyyət yaratmaqla mövcud problemləri, eləcə də dövlət məmurlarının işə münasibətini öyrənmək olmuşdu. Heydər Əliyev hələ o dövrdən insanlarla ünsiyyətdə olmağı, onların üzləşdiyi çətinlikləri yerindəcə öyrənib təxirəsalınmaz tədbirlər həyata keçirməyi idarəçilikdə müsbət ənənə kimi formalaşdırmışdı.

**(davamı gələn sayımızda)**

**Akademik**
**Ziyad Səmədzadə**

# Nazirlər Kabinetində Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası üzrə görülmüş işlər müzakirə olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına nəzarətin və hesabatlılığın həyata keçirilməsi və tədbirlərin icra vəziyyəti barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumatın verilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılıb. Bu tapşırıqdan irəli gələrək oktyabrın 24-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərliyi ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası üzrə nəzarət tədbirlərinin nəticələri haqqında iclas keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, iclasda Dövlət Proqramının icrasına məsul olan aidiyyəti dövlət qurumlarının rəhbərləri və işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri iştirak ediblər.

İclasda Dövlət Proqramında nəzərdə tutulmuş müvafiq tədbirlərin icrası üzrə işlərin gedişinə nəzarətin birbaşa operativ və səmərəli təmini məqsədilə yaradılmış çoxfunksional interaktiv (onlayn rejimdə kamera və peyk xəritələri) Elektron Portalın təqdimatı (boyukqayidish.gov.az) keçirilib, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı 2023-cü ilin birinci yarımilliyi üzrə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"-nın icrası istiqamətində aparılmış monitorinq və qiymətləndirmənin nəticələri barədə hazırlanmış Hesabatla çıxış edib.

Sonra iclasda işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri tərəfindən görülən işlər barədə məlumat verilib və hesabatla bağlı ətraflı müzakirələr aparılıb.

Müzakirələr zamanı Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası zamanı müşahidə olunan əsas çətinliklər və növbəti müddətdə diqqət yetirilməli istiqamətlər vurğulanıb.

İclasın yekununda "Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası istiqamətində aparılmış monitorinq və qiymətləndirmənin nəticələri barədə hazırlanmış hesabatın Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi, habelə Dövlət Proqramının növbəti icra mərhələsində işlərin operativ, vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi, həmçinin layihələrin icrası prosesində qarşıya çıxan çətinliklərin həlli üçün aidiyyəti dövlət qurumlarına müvafiq tapşırıqlar verilib.

# "Ulu Öndər Heydər Əliyev və milli gəmiçilik siyasəti" mövzusunda tədbir keçirilib



Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100, eləcə də inkişafında Ulu Öndərin böyük xidmətləri olan milli gəmiçiliyin əsasının qoyulmasının 165 və Prezident İlham Əliyevin 2013-cü ildə imzaladığı Sərəncamla iki böyük gəmiçilik şirkətinin birləşdirilməsi yolu ilə yenidən təşkil edilən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılmasının 10 illiyinə həsr olunmuş "Ulu Öndər Heydər Əliyev və milli gəmiçilik siyasəti" mövzusunda tədbir keçirilib.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) təşkilatçılığı ilə keçirilən tədbirdə müxtəlif dövlət strukturlarının rəhbərləri, qurumun əməkdaşlıq etdiyi yerli və xarici şirkətlərin nümayəndələri, ictimai-siyasi xadimlər, qocaman və qazi dənizçilər, Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri iştirak ediblər.

Tədbirin keçirildiyi "Gülüstan" sarayına gələn iştirakçılar foyedə Ulu Öndər Heydər Əliyevin dəniz nəqliyyatı sahəsindəki misilsiz xidmətlərini, eləcə də milli gəmiçiliyin keçmişini və bu gününü əks etdirən foto və məlumatlardan ibarət sərgi ilə tanış olublar.

Burada, həmçinin ASCO-nun sifarişi ilə "Heydər Əliyev İli" çərçivəsində toxunmuş xalçanın son ilməsinin kəsilməsi mərasimi keçirilib, qonaqlara xalça kompozisiyasında əksini tapmış ideyalardan bəhs edən videoçarx nümayiş etdirilib.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyünün bərpası, tarixi torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

ASCO-nun İdarə Heyətinin sədri Rauf Vəliyev bildirib ki, ölkəmizdə gəmiçilik sahəsinin inkişafında və bugünkü mövqeyinin formalaşmasında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri olub: ***"O, donanmamızı xalqımızın əvəzsiz sərvəti hesab edirdi və Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə dəniz nəqliyyatı sahəsinin inkişafını, o cümlədən dənizçiləri xüsusi diqqətdə saxlayırdı".*** Rauf Vəliyev əlavə edib ki, Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkənin nəqliyyat sektorunda və onun mühüm tərkib hissəsi olan gəmiçilik sahəsində mühüm nailiyyətlər əldə edilib. Azərbaycan indi dünya xəritəsində beynəlxalq nəqliyyat marşrutları üzərində əlverişli tranzit mövqeyini möhkəmləndirib və regionda nəqliyyat-logistika qovşağına çevrilməyə müvəffəq olub.

Rauf Vəliyev "Heydər Əliyev İli" və bu il çərçivəsində ASCO-nun həyata keçirdiyi layihələrlə də bağlı fikirlərini bölüşüb.

Tədbirdə gəmiçiliyin 165 illik tarixi, milli dənizçilik ənənələri, gəmiçiliyin müasir dövrdəki inkişafından bəhs edən "Üç əsrə şahid" adlı qısametrajlı bədii-sənədli film də təqdim olunub.

# Qırğızıstanın Hesablama Palatası Azərbaycanla əməkdaşlığı möhkəmləndirir

"Qırğızıstanın Hesablama Palatası Azərbaycanla əməkdaşlığı möhkəmləndirmək istəyini bildirir".

Bu barədə Qırğızıstanın Hesablama Palatasının sədri Almazbek Akmatov deyib.

Onun sözlərinə görə, Azərbaycanın və Qırğızıstanın hesablama palataları uzunmüddətli və məhsuldar əməkdaşlıq tarixçəsinə malikdir və bu, iki ölkə arasında münasibətlərin möhkəmlənməsinə imkan yaradır.

A.Akmatov hər iki dövlətin başçısının bu məsələyə xüsusi diqqət ayırmasının bu əməkdaşlığın ali səviyyədə əhəmiyyətini vurğuladığını qeyd edib. Onun fikrincə, bu Azərbaycanla dərindən və yaxın tərəfdaşlığın yalnız başlanğıcıdır və bu prosesdə ali audit orqanlarının əməkdaşlığı mühüm rol oynayacaq, o cümlədən iki ölkə arasında əlaqələrin möhkəmlənməsi və təcrübə mübadiləsi müxtəlif sahələrdə tərəfdaşlığın daha da inkişafına imkan yaradacaq.




Qeyd edək ki, Azərbaycan bu il Qırğızıstanda İssık-Kul gölünün sahilində beş ulduzlu hotelin inşasına başlayıb. Obyekt Kara-Oy kəndində, Qırğızıstanın Azərbaycana uzunmüddətli icarəyə verdiyi 17 hektarlıq ərazidə yerləşəcək.

# Ağdam Sənaye Parkında 5-dək müəssisə fəaliyyətə başlayacaq




"Gələn il Ağdam Sənaye Parkında 4-5 müəssisə fəaliyyətə başlayacaq". Bu barədə İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Elşad Nuriyev jurnalistlərə deyib.

"Bu il tikinti işlərinin başa çatacağı, gələn il isə Ağdam Sənaye Parkında 5-dək müəssisənin fəaliyyətə başlayacağı gözlənilir", - o deyib.

Onun sözlərinə görə, bu müəssisələr əsasən tikinti materialları, divar kağızları və ayaqqabı istehsalı ilə məşğul olacaq.

Qeyd edək ki, Ağdam Sənaye Parkı Azərbaycan Respublikası Prezidentinin 28 may 2021-ci il tarixli Fərmanı ilə yaradılıb.

Ümumilikdə, Ağdam Sənaye Parkına 60 milyon manatdan çox investisiya qoyulacaq.

Sənaye Parkında 700-dən artıq iş yerinin yaradılması nəzərdə tutulur. Yaradılan müəssisələr yerli istehsalın inkişafına təkan verməklə, bölgənin resurslarının iqtisadi dövriyyəyə cəlb edilməsinə, Qarabağın dirçəlişinə, bütünlükdə ölkəmizdə qeyri-neft sənayesinin inkişafına mühüm töhfə verəcək.

2022-ci ildə Ağdam Sənaye Parkında 12 sahibkarlıq subyektinə rezident, 3 sahibkara isə qeyri-rezident statusu verilib.

# Azərbaycan və Belarus audit sahəsində fəal əməkdaşlıq edir

"Azərbaycan və Belarus imzalanmış əməkdaşlıq sazişləri çərçivəsində audit sahəsində fəal təcrübə mübadiləsi aparır".

Bu barədə Belarus Respublikası Dövlət Nəzarəti Komitəsi sədrinin birinci müavini Dmitri Basko deyib.

Onun sözlərinə görə, Bakıda keçirilən 3-cü "Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə Dialoq" çərçivəsində Belarus tərəfi Azərbaycanın Hesablama Palatasının sədri Vüqar Gülməmmədovla görüşəcək, həmçinin aqrar sənaye kompleksində audit sahəsində təcrübə mübadiləsi üzrə ikitərəfli seminar keçiriləcək.

Xatırladaq ki, Bakıda "2023-cü il Qlobal DİM Sammitinin Nəticələri və DİM-lərin həyata keçirilməsində Ali Audit Qurumların rolu"üzrə Üçüncü DİM Dialoqu keçirilir.

# Azərbaycanda qablaşdırma məhsulları istehsal edən yeni böyük müəssisə açılır

"Sumqayıt Kimya Sənaye Parkındakı "Universal Qablaşdırma Sənayesi" QSC daxili bazarın ehtiyaclarının 30 faizini qarşılayacaq".

Bu barədə "Universal Qablaşdırma Sənayesi" QSC-nin direktoru Fikrət Vəliyev jurnalistlərə deyib.

***"Bu gün "Universal Qablaşdırma Sənayesi" QSC Azərbaycanda beş qat kartondan karton qablaşdırma istehsal edən yeganə müəssisədir. İstehsal gücümüz daxili bazarın ehtiyacının 30 faizini qarşılamağa imkan verir. Bundan başqa, müəssisədə həmçinin, fayllar istehsal olunur. Fayl istehsalı üzrə avadanlığın gücü yerli bazarın ehtiyaclarını 100 faiz qarşılamağa imkan verir",*** - o deyib.

Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılıb. Bu, Azərbaycanda yaradılmış ilk sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkı Cənubi Qafqazda ən böyük sənaye parkıdır. Sənaye Parkının 583,5 hektar ərazisində neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabət qabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir. Ümumi investisiyalarının həcmi 5,8 milyard manata yaxın olan 38 sahibkarlıq subyekti parkda 38 rezident statusu alıb. Bugünədək rezidentlər sənaye parkına 5,4 milyard manatdan çox investisiya qoyub. Qeydiyyatdan keçmiş 38 rezidentdən 20-si artıq fəaliyyət göstərir.

# Sumqayıtda polimer əlavələr istehsal edən müəssisənin məhsullarının böyük hissəsi ixrac olunacaq

"Sumqayıt Kimya Sənaye Parkında polimer əlavələrin istehsalı ilə məşğul olan "Novus Plastica" MMC-nin istehsal etdiyi məhsulların 60 faizi ixrac olunacaq".

Bunu MMC-nin direktoru və həmtəsisçisi Fərid Cəfərov jurnalistlərə deyib.

Onun sözlərinə görə, istehsal olunan məhsulun yerdə qalan 40 faizi daxili bazarın bütün ehtiyacını qarşılayacaq.

"Hazırda potensial alıcılar üçün sınaq məhsullar göndərmişik", - deyə o vurğulayıb.

Qeyd edək ki, "Novus Plastica" MMC-yə 2020-ci ilin avqust ayında Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. Müəssisənin investisiya dəyəri 11 milyon manatdan çoxdur. Sənaye parkında 3,5 hektar ərazidə inşa olunmuş müəssisədə iki növdə – polietilen borular üçün qara karbon konsentrat qatqısı və sənaye sahəsində qablaşdırmada istifadə ediləcək polietilen örtüklər istehsal olunur. İtaliyanın qabaqcıl texnologiyalarının tətbiq olunacağı müəssisədə istehsal edilən məhsulların daxili bazarda satışı ilə yanaşı, Türkiyə, MDB ölkələrinə ixracı da planlaşdırılır. İnvestisiya dəyəri 12,1 milyon manat olan müəssisədə 50 nəfər daimi iş yeri ilə təmin ediləcək.

# Kimya sənaye parkında yeni müəssisələrin nə zaman işə başlayacağı açıqlanıb

"Sumqayıt kimya sənaye parkında "Kartaş Kimya" MMC və "Çinar-Servis" istehsalat-kommersiya firmasının 2024-cü ilin sonu - 2025-ci ilin əvvəlində açılması planlaşdırılır". Bu barədə İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Elşad Nuriyev jurnalistlərə deyib.

"2 hektar sahədə yerləşən "Çinar-Servis" müəssisəsində 70 yeni iş yerinin açılması planlaşdırılır. Burada sıxılmış azot, oksigen, arqon və maye helium istehsal ediləcək. İstehsal olunan məhsulların yerli bazarın tələbatını ödəməklə yanaşı, Türkiyə, Gürcüstan və Rusiyaya da ixrac ediləcəyi gözlənilir. "Kartaş Kimya" MMC 2,5 hektar sahədə tikiləcək və burada 250 daimi iş yerinin yaradılması nəzərdə tutulub. Burada istehsal olunan məhsullar daxili bazara çıxarılmaqla yanaşı, Türkiyə və MDB ölkələrinə də ixrac ediləcək", - deyə o əlavə edib.

Qeyd edək ki, Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılıb. Bu Sənaye Parkı Cənubi Qafqazda ən böyük sənaye parkıdır.

# Gəncə avtomobil zavodu İB-də 9 ay ərzində yük avtomobillərinin yığımında artım var

"Gəncə Avtomobil Zavodu" İB-də bu ilin 9 ayı ərzində yük avtomobilləri və traktor istehsalında ötən ilin müvafiq dövrünə nisbətdə artım qeydə alınıb.

Birliyin mətbuat katibi Məqsəd Rəhimovun sözlərinə görə, 2022-ci ilin ilk 9 ayı ərzində yük avtomobillərinin istehsal rəqəmi 139 idisə, 2023-ci ildə bu rəqəm 239 təşkil edib ki, bu da 65 faiz artım deməkdir.Traktor istehsalı isə ötən ilin müvafiq dövrünə nisbətdə 12 faiz artaraq 533 təşkil edib. 2022-ci ilin 9 ayında isə bu rəqəm 483 idi.

M.Rəhimiov onu da əlavə edib ki, 2023-ci ilin 9 ayı ərzində "Gəncə avtomobil zavodu" İB-də müxtəlif təyinatlı 147 KAMAZ, 50 ədəd kombayn və 23 ədəd KAMAZ şassisi üzərində quraşdırılmış vaxta avtobusu yığılıb. Ümumilikdə, müəssisədə bu günə kimi 13100 müxtəlif modeldə və modifikasiyada traktor, 2908 MAZ, 907 KAMAZ, 591 URAL, 6 ədəd MAZ avtobusu, 4 ədəd elektrobus, 879 traktor qoşqusu, 301 ədəd MAZ qoşqusu yığılıb.

# Sığorta yığımlarında kəskin artım müşahidə olunur

"2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycanda sığorta yığımları 28,2% artaraq, 937,237 milyon manata çatıb".

Trend xəbər verir ki, bu barədə Azərbaycan Mərkəzi Bankı məlumat yayıb.




Bildirilib ki, bu dövrdə ümumi sığorta ödənişlərinin həcmi isə 25,7% artaraq 400,387 milyon manata yüksəlib. Sığorta yığımları artım dinamikasının daha yüksək olması sığorta bazarının zərərliliyinə də təsir edib. Belə ki, 2022-ci ilin yanvar-sentyabr aylarında sığortaçılar topladıqları hər 100 manatın 43,6 manatını ödənişə yönləndirmişdilərsə, bu ilin eyni dövründə bu rəqəm 42,7 manata kimi azalıb.

# Алиев оценил деятельность SOCAR в Швейцарии



Президент Азербайджана Ильхам Алиев принял верительные грамоты новоназначенного чрезвычайного и полномочного посла Швейцарии в Баку Томаса Штеля, сообщает официальный сайт главы государства.
Посол вручил Алиеву свои верительные грамоты.
Затем глава государства побеседовал с послом.
Отметив, что двусторонние отношения успешно развиваются как в политической, так и в экономической сферах, Алиев подчеркнул важность регулярных встреч с главами государств Швейцарии во время его визитов на Всемирный экономический форум с точки зрения обсуждения вопросов сотрудничества.
Выразив удовлетворение уровнем сотрудничества в торговой, экономической, энергетической сферах, глава государства коснулся успешной деятельности швейцарских компаний в Азербайджане, подчеркнул их активную работу над проектами реконструкции на наших освобожденных от оккупации территориях.
В то же время президент расценил деятельность SOCAR в Швейцарии, вложение швейцарскими компаниями инвестиций в экономику Азербайджана как хороший показатель наших отношений в сфере бизнеса.
Коснувшись в первую очередь своего визита в Карабах, посол отметил, что ознакомился с идущими там восстановительными работами, сказал, что намерен пригласить сюда швейцарские компании.
Подчеркнув, что швейцарские компании активно участвуют в развитии экономики Азербайджана, Штель заявил, что для расширения сотрудничества в этой сфере существует хороший потенциал.

# Итальянские предприниматели проинформированы о потенциале Азербайджана

В Культурном центре посольства Азербайджана в Италии состоялась встреча с членами Римского Европейского фонда и Фонда европейской инициативы, а также представителями действующих в различных сферах компаний.
На встрече посол Азербайджана в Италии Рашад Асланов рассказал об экономическом развитии нашей страны, росте валового внутреннего продукта и ненефтяного сектора, экономических возможностях, созданных постконфликтным периодом, бизнес-среде и благоприятных условиях, созданных для иностранных инвесторов.
Дипломат отметил, что благодаря значительным энергетическим проектам, масштабным транспортно-логистическим проектам Азербайджан превратился в региональный транзит-но-логистический хаб.



Говорилось о преимуществах Бакинского порта, Алятской свободной экономической зоны и Зангезурского коридора для регионального сотрудничества, отмечено создание в Карабахе новых Агдамского промышленного парка и экономической зоны «Аразская долина».
Посол подчеркнул, что азербайджано-итальянские отношения, поднявшиеся до уровня многопланового стратегического партнерства, опираются на взаимные интересы и дружбу. Член комиссии по внешним связям и делам общины Палаты депутатов Италии Этторе Росато сказал, что Азербайджан на протяжении многих лет является основным поставщиком нефти в Италию. С вводом же в эксплуатацию Трансадриатического трубопровода (TAP) Азербайджан стал одним из основных поставщиков природного газа в Италию.

# Работы на освобожденных территориях ведутся в соответствии с Планом устойчивого развития ООН

Об этом заявил заместитель министра иностранных дел Азербайджанской Республики Ялчин Рафиев в ходе III Диалога по ЦУР на тему «Итоги глобального саммита по Целям устойчивого развития (ЦУР) 2023 года и роль высших аудиторских органов в реализации ЦУР», проходящем 24 октября в Баку.
По его словам, после освобождения Азербайджаном своих земель от почти 30-летней оккупации восстановление и реконструкция этих территорий, а также возвращение людей на родные земли были обозначены в качестве основных целей.
«Продолжение пандемии COVID-19, рост бедности и геополитическая напряженность еще больше замедлили прогресс в области устойчивого развития. По этой причине мы находимся на полпути к достижению ЦУР», - отметил заместитель министра.

# Открытые накануне предприятия вложили в Сумгайытский химический промышленный парк более 100 млн манатов

Предприятия, открытие которых состоялось 23 октября в Сумгайытском химическом промышленном парке при участии Президента Ильхама Алиева, вложили в промышленный парк инвестиции в размере более 100 миллионов манатов, создано около 600 рабочих мест.
Во вторник журналисты посетили приступившие к деятельности производственные предприятия в Сумгайытском химическом промышленном парке.
Было отмечено, что статус резидента в парке получили 38 субъектов предпринимательства с общим объемом инвестиций около 5,8 миллиарда манатов.
На сегодняшний день резиденты вложили в промышленный парк более 5,4 миллиарда манатов.
Из 38 зарегистрированных резидентов 23 уже функционируют.
На сегодняшний день резидентами Сумгайытского химического промышленного парка реализовано продукции на общую сумму 9,5 миллиарда манатов, из которых более 3,3 миллиарда манатов – примерно 34,7 процента – приходится на долю экспорта. За 9 месяцев 2023 года в промышленном парке произведено продукции на 2,1 миллиарда манатов, экспортировано продукции на сумму 674,4 миллиона манатов (32,1 процента).
В настоящее время в Сумгайытском химическом промышленном парке обеспечены постоянной работой более 6600 человек.

# За последние 20 лет ВВП Азербайджана увеличился в 4 раза



По оценкам Всемирного банка, Азербайджан в 2022 году вошел в группу стран с высоким средним доходом, тогда как с 2002 года находился в группе стран с низким средним доходом. За последние 20 лет (2003–2022 годы) валовой внутренний продукт (ВВП) Азербайджана увеличился в 4 раза, а ВВП на душу населения увеличился в 3,2 раза. Об этом заявил заместитель министра экономики Сахиб Мамедов на III Диалоге по ЦУР на тему «Итоги глобального саммита по Целям устойчивого развития (ЦУР) 2023 года и роль высших аудиторских органов в реализации ЦУР», проходящем 24 октября в Баку.
С.Мамедов отметил, что реконструкция и реинтеграция наших освобожденных земель в средне- и долгосрочной перспективе сулит широкие возможности для наращивания нашего экономического потенциала. Большое значение в этом плане имеет реализация I Государственной программы по Великому возвращению на освобожденные от оккупации территории. Одним из основных направлений является создание необходимой инфраструктуры для обеспечения реконструкции, восстановления, устойчивого развития и высокого уровня жизни населения на освобожденных территориях.

# Приоритетом азербайджанского правительства в рамках ЦУР является восстановление освобожденных территорий

Основным приоритетом правительства Азербайджана в рамках Целей устойчивого развития является реконструкция и восстановление освобожденных от оккупации территорий.
Об этом заявил заместитель премьер-министра Али Ахмедов на III Диалоге по ЦУР на тему «Итоги глобального саммита по Целям устойчивого развития (ЦУР) 2023 года и роль высших аудиторских органов в реализации ЦУР», проходящем 24 октября в Баку. Он отметил, что Азербайджан, как член ООН, должным образом выполняет все свои обязательства. В то же время наша страна активно участвует во всех инициативах Организации Объединенных Наций, направленных на благосостояние людей. Азербайджан очень серьезно относится к Целям устойчивого развития на правительственном уровне.

# Обсуждены перспективы сотрудничества турецких компаний с азербайджанскими предпринимателями

Посол Турецкой Республики в Азербайджане Джахит Багчи посетил «Бакинский дом малого и среднего бизнеса» (Дом МСБ).
В Агентстве по развитию малого и среднего бизнеса Азербайджана (KOBİA), председатель Правления агентства Орхан Мамедов проинформировал посла о концепции и преимуществах домов МСБ, повышении эффективности работы бизнес-структур благодаря услугам, оказываемым предпринимателям государственными и частными организациями, новшествах, предусмотренных в связи с деятельностью Домов МСБ.
В рамках визита в «Бакинский дом малого и среднего бизнеса» состоялся обмен мнениями о расширении связей между деловыми кругами двух стран, возможностях расширения сотрудничества турецких компаний, действующих в Азербайджане, с местными субъектами МСБ.

# Ərdoğanla Putin İsrail-Fələstin münaqişəsini müzakirə edib



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya prezidenti Vladimir Putin telefonla danışıb.

İki ölkə lideri İsrail-Fələstin münaqişəsini müzakirə edib.

Türkiyə və Rusiya prezidentləri İsrail-Fələstin münaqişəsində artan gərginliyi və bölgədə yaşanan humanitar böhranı müzakirə ediblər.

Türkiyə prezidenti Qərbin səssizliyinin Qəzzadakı humanitar böhranı qarşısıalınmaz səviyyəyə keçirdiyini bildirib. Ərdoğan həmçinin, Türkiyənin regionda sülhün təmin olunması üçün lazımi hər cür səyləri göstərməyə davam edəcəyini bildirib.

Qeyd edək ki, oktyabrın 7-də İsrailə hücumlar olunub. Əvvəlcə Qəzza bölgəsindən reaktiv mərmilərlə kütləvi atəş açılıb, daha sonra döyüşçülər əraziyə qurudan, havadan və sudan daxil olublar.

İsrail müharibə vəziyyəti elan edib. Bundan başqa, İsrailin müdafiə naziri Yoav Qallant ehtiyatda olan hərbçilərin kütləvi çağırışını elan edib.

# Fransa bölgədə sülhə qarşı çıxır: İkili standartlardan əl çəkmək istəmir



"Fransa və Fransaya bənzər dairələr bilməlidirlər ki, Azərbaycanla hər hansı bir ultimatum dili ilə danışmaq mümkün deyil, bu gün Cənubi Qafqazda gündəliyi müəyyənləşdirən də elə Azərbaycandır".

Bunu Milli Məclisin deputatı Cavid Osmanov deyib.

Deputat qeyd edib ki, Ermənistanın müdafiə naziri Suren Papikyan Fransaya səfər etdi və səfər çərçivəsində Fransa ikili standartlar göstərərək Ermənistana növbəti dəfə dəstəyini nümayiş etdirdi və Ermənistanla hərbi əməkdaşlıq haqqında sənəd imzaladı.

**"Sənədə əsasən, Fransa istehsalı olan hərbi texnikanın Ermənistana verilməsi haqda razılıq əldə olundu. Bu, onu göstərir ki, Fransa bölgədə birbaşa sülhə qarşı çıxır.**

**Məsələ təkcə Frsansanın Ermənistana silah-sursat verməsi ilə bitmir, eyni zamanda Fransanın hərbi məsləhətçiləri də Ermənistanda əsgər və zabitlərin hazırlanması üçün bölgəyə səfərlər edəcək. Bu, onu göstrərir ki, Fransa Cənubi Qafqazda eskalasiya yaratmaq məqsədi güdür. Görünür, Fransa Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etməklə regionda yeni reallıqlar yaratmasını həzm edə bilmir və bölgədə yeni gərginlik yaratmağa cəhd edir",** - deyə o, əlavə edib.

Onun sözlərinə görə, Fransa hər zaman Ermənistana açıq dəstəyini nümayiş etdirib və Azərbaycana qarşı ikili standartlar siyasəti yürüdüb.

# Netanyahu "Hizbullah"a xəbərdarlıq edib

İsrailin baş naziri Benyamin Netanyahu "Hizbullah"a İsrail-Fələstin münaqişəsinə qarışmaması üçün xəbərdarlıq edib.



Baş nazir bu barədə Fransa prezidenti Emmanuel Makronla birgə mətbuat konfransında deyib.

Onun sözlərinə görə, İsrailə qarşı müharibəyə girmək dağıdıcı nəticələrə səbəb ola bilər. İsrailin "iki cəbhədə" döyüşməli olduğunu bildirən baş nazir bildirib ki, "Hizbullah" müharibəyə qatılarsa, həyatındakı ən böyük səhvi etmiş olar. O, İsrailin lazım gələrsə, "Hizbullah"a ağlasığmaz zərbələr yetirə biləcəyini deyərək, istənilən ssenariyə hazır olduqlarını əlavə edib.

# Vaşinqton ABŞ vətəndaşlarını Yaxın Şərqdən təxliyə etməyi planlaşdırır

"ABŞ administrasiyası İsrail-Fələstin münaqişəsini dayandırmağın mümkün olmayacağı təqdirdə yüz minlərlə ABŞ vətəndaşını Yaxın Şərqdən təxliyə etməyə hazırlaşır".

Bu barədə "The Washington Post" qəzeti məlumatlı mənbəyə istinadən xəbər dərc edib.

Məlumata görə, ən pis ssenaridə İsrail və Livan ərazisində yaşayan 600 mindən çox ABŞ vətəndaşının təxliyəsi planlaşdırılır.

Qeyd edək ki, oktyabrın 7-də İsrailə hücumlar olunub. Əvvəlcə Qəzza bölgəsindən reaktiv mərmilərlə kütləvi atəş açılıb, daha sonra döyüşçülər əraziyə qurudan, havadan və sudan daxil olublar.

İsrail müharibə vəziyyəti elan edib. Bundan başqa, İsrailin müdafiə naziri Yoav Qallant ehtiyatda olan hərbçilərin kütləvi çağırışını elan edib.

# Dünyada pandemiyanın yaranmasının qarşısını almaq qeyri-mümkündür

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Klüge COVID-19 da daxil olmaqla pandemiyaları tamamilə dayandırmağın mümkün olmadığını bildirib.



Astanada keçirilən ÜST Avropa Regional Komitəsinin 73-cü sessiyasında Klüge qloballaşan dünyada başqa pandemiyaların da olma ehtimalını qeyd edib. O, COVID-19 pandemiyasından çoxlu dərslərin alındığını vurğulayıb. Klügenin sözlərinə görə, pandemiyaları dayandırmaq mümkün olmasa da, onlara daha yaxşı hazırlaşmaq mümkündür.

# Dayanıqlı İnkişaf Məqsədləri 2030: ərzaq təhlükəsizliyində hədəflər

***XX əsrin 90-cı illərində 1,9 milyard insanın səfalət, yoxsulluq içində yaşaması beynəlxalq ictimaiyyəti təcili və təxirəsalınmaz tədbirlər görməyə məcbur etdi.*** XXI əsrin strategiyasının formalaşdırılması istiqamətində Birləşmiş Millətlər Təşkilatının (BMT) 2000-ci ildə keçirilən toplantısında təşkilatın 191 üzv ölkəsi və 22 beynəlxalq təşkilatın iştirakı ilə 2000-2015-ci illəri əhatə edən Minilliyin İnkişaf Hədəfləri (MİH) müəyən olunaraq qəbul edildi. Özündə 8 hədəfi ehtiva edən MİH-nin ilk hədəfi ifrat yoxsulluq dərəcəsinin və aclığın əsaslı surətdə azaldılması idi. ***Proqramın tətbiqi nəticəsində dünyada ifrat yoxsulluq, səfalət və aclıq içində yaşayan insanların sayı azalaraq 1990-cı illərdə 1,9 milyard təşkil edirdisə, artıq bu rəqəm 2015-ci ildə 836 milyona enmişdi. MİH böyük dərəcədə irəliləyişə nail olsa da, 800 milyondan çox insanın yoxsulluq və aclıq vəziyyətində olması hələ də həlli vacib olan və həyati əhəmiyyət daşıyan məsələlərin həllinə istiqamətlənməyi tələb edir.*** Dünyanın ən böyük beynəlxalq təşkilatı olan BMT aclığa və yoxsulluğa son qoyulması istiqamətində növbəti qlobal çağırışı həyata keçirərək, bütün dünya ölkələrinin yerinə yetirməsi üçün 2015-ci ildə 17 məqsəddən ibarət Dayanıqlı İnkişaf Məqsədlərini (DİM) tərtib etmişdir və həmin məqsədlərə 2030-cu ilə qədər nail olunması nəzərdə tutulur. Qeyd olunan 17 məqsəddən ilk ikisi müvafiq olaraq "Yoxsulluğa son" və "Sıfır aclıq" başlığı altındadır. Yoxsulluğa son adlı birinci məqsəd özündə 5 hədəf birləşdirir **(bax: şəkil 1).**

*Şəkil 1*

***DİM-in "Yoxsulluğa son" məqsədinin hədəfləri***




*Mənbə: https://sdgs.un.org/ məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Aclıq və qida çatışmazlığına səbəb olan hadisələr 4 qrupda cəmləşdirilir. BMT tərəfindən təyin olunmuş bu səbəblər aşağıdakılardır:

***- hökumətlərin yeritdiyi uğursuz siyasət;***

***- iqtisadi və istehsalla bağlı məsələlər;***

***- demoqrafik və sosial məsələlər;***

***- iqlim dəyişikliyi və ətraf mühit.***

BMT-nin hesablamalarına görə, dünya əhalisinin təxminən 10%-i aclıqdan əziyyət çəkir. Başqa sözlə, dünyada hər 9 insandan 1-i aclıq vəziyyətindədir. Bütün bunları nəzərə alaraq qlobal çağırış kimi artıq qəbul olunan DİM-in ikinci məqsədi "Sıfır aclıq" 2030-cu ilə qədər dünyada aclığın kökünün kəsilməsini hədəfləməkdədir. Bu məqsəd özündə 8 hədəfi ehtiva edir **(bax: şəkil 2).**

İnsanların qida olaraq qəbul etdikləri məhsullarda qidalanma dəyəri, məhsulun kkal formulu önəmli əhəmiyyət kəsb edir. Birləşmiş Ştatlar hökumətinə görə, bir kişinin gün ərzində orta qidalanma dəyəri 2700 kkal, qadının isə 2200 kkal təşkil etməlidir.

*Şəkil 2*

***DİM-in "Sıfır aclıq"məqsədinin hədəfləri***




*Mənbə: https://www.un.org/sustainabledevelopment/hunger/ məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

FAO isə bir insanın gündəlik ortalama qidalanma dəyərinin 1800 kkal təşkil etməli olduğunu vurğulayır. Burada da qeyd etmək yerinə düşərdi ki, hazırki dövrdə inkişaf etmiş ölkələrdə (İEÖ) insanların gündəlik orta qidalanma dəyəri 3000 kkal+ olduğu halda, həmin göstərici inkişaf etməkdə olan ölkələrdə (İEOÖ) 2500 kkal civarında, yerdə qalan ölkələr üçün isə FAO-nun qəbul etdiyi ortalama göstəricidən aşağıdır.

Qidalanma norması eynilə həmin ölkələrin ərzaq təhlükəsizliyi sistemini xarakterizə edir. Yuxarıda qeyd olunan tendensiya – qida normasının insan ehtiyaclarını ödəməsi ərzaq təhlükəsizliyinin təminatından birbaşa asılıdır və ölkələrin inkişaf vəziyyəti ərzaq ilə təmin olunma səviyyəsi ilə üzvi surətdə bağlıdır. İqtisadi cəhətdən böyük inkişafa nail olmuş ölkələr rifah halının da yüksək olması ilə tanınır. Bütün sahələrdə olduğu kimi, onlar ərzaq təhlükəsizliyi siyasətində və təmin olunma dərəcəsində də öndədirlər **(bax: şəkil 3).**

*Şəkil 3*

***Qlobal Ərzaq Təhlükəsizliyi İndeksində ilk 20-likdə yer alan Avropa ölkələri, 2021***




*Mənbə: Impact Economist məlumatları əsasında hazırlanmışdır.*

Beynəlxalq reytinqə baxdıqda şəkil 3-də adları göstərilən ölkələrdən də göründüyü kimi, dünya üzrə ilk 20-likdə adı olan ölkələrin 70%-i, yəni 14-ü Avropanın payına düşür. İlk 5-lik isə müvafiq olaraq İrlandiya, Avstriya, Birləşmiş Krallıq, Finlandiya və İsveçrədir.

**Azərbaycan Qlobal Ərzaq Təhlükəsizliyi İndeksində**

Ərzaq təhlükəsizliyinin təmin olunması nöqteyi-nəzərindən qeyd edə bilərik ki, 2016-cı ildə qəbul olunan Strateji Yol Xəritəsi özündə aqrar sahədə maliyyələşmə mexanizmlərinin formalaşdırılması və əldə edilməsi imkanlarının asanlaşdırılmasını ehtiva etməkdədir. Burada, eyni zamanda kənd təsərrüfatına investisiyaların cəlb olunması və onun müxtəlif vasitələr ilə stimullaşdırılması, həmçinin sığorta məsələləri də yer almaqdadır. Ölkəmizdə həyata keçirilən və bütün iqtisadi sferaları əhatə edən iqtisadi siyasət nəticəsində ərzaq təhlükəsizliyi ilə təmin olunma indeksinin beynəlxalq reytinq cədvəli vasitəsilə bir çox ölkələrdən irəli səviyyədə qərarlaşdığını görünür **(bax: şəkil 4).**

Qlobal Ərzaq Təhlükəsizliyi indeksinin məlumatlarına əsasən deyə bilərik ki, ölkəmiz beynəlxalq reytinq cədvəlində 2016-2021-ci illər arasında 113 ölkə arasından əllilikdə mövqe tutmuşdur. Azərbaycan qlobal indeksdə 2016-cı ildə 57-ci, 2019-cu ildə 53-cü, 2021-ci ildə isə 56-cı yerdə qərarlaşmışdır və bunun səbəbi dünyamızı bürüyən Covid-19 pandemiyasının qlobal səviyyədə yaratdığı iqtisadi, siyasi və sosial problemlər olmuşdur. Bu sıralamada ölkəmiz Şimali Afrika dövlətlərindən Misir, Əlcəzair, Tunis və Mərakeşi və eyni zamanda Ukrayna, Serbiya (2019) kimi Avropa dövlətlərini qabaqlayır.

*Şəkil 4*

***Qlobal Ərzaq Təhlükəsizliyi İndeksində Azərbaycan, 2016-2021-ci illərdə***




*Mənbə: Impact Economist məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Azərbaycan dövləti çoxtərəfli diplomatiyanı dəstəkləyən multilateral siyasət yürüdür və ölkəmiz beynəlxalq təşkilatlar çərçivəsində çox səmərəli əməkdaşlıqla milli maraqlara söykənən konvensiyalara qoşulur. 2000-ci ildə Avropa Komissiyasının Ərzaq təhlükəsizliyi proqramına qatılan ölkəmiz həmçinin BMT-nin eyni ildə qəbul etdiyi MİH-yə qoşulmuş və ərzaq təhlükəsizliyi sahəsində əldə etdiyi uğurlara və yoxsulluğun azaldılmasına görə 2015-ci ildə FAO tərəfindən mükafatlandırılmışdır. Hazırda 2030-cu il üzrə qlobal gündəliyi rəhbər tutaraq dövlət DİM-in məqsədlərinin həyata keçirilməsi istiqamətində əməli-praktiki siyasət yürütməkdədir.

**Maqsud Quliyev,**
**doktorant,**
**iqtisadçı-ekspert**

# Qəzzada humanitar atəşkəs elan edilməlidir - Aİ

"Qəzzada hərbi əməliyyatlarda humanitar atəşkəs elan edilməlidir, bölgəyə yardım çatdırılması prioritetdir".

Bunu Avropa İttifaqının (Aİ) Xarici siyasət və Təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrell Aİ xarici işlər nazirlərinin görüşü üçün getdiyi Lüksemburqda deyib.

"Qəzzada humanitar fasilə verilməlidir. Humanitar fasilə bu gün müzakirə olunacaq.

Bu, humanitar yardımın bölgəyə çatdırılaraq bölüşdürülməsi üçün vacibdir", - Borrell deyib.

# 6 ayda PAŞA Bankın kredit portfeli artıb, öhdəlikləri isə azalıb

Bu ilin ilk 6 ayında PAŞA Bankın öhdəlikləri ötən ilin sonuna 2 faiz azalaraq 115 milyon manat təşkil edib." Bu sözləri PAŞA Bankın idarə heyətinin üzvü, baş maliyyə inzibatçısı Murad Süleymanov bankın altı ayın yekunlarına həsr olunmuş mətbuat konfransında çıxışı zamanı deyib. Bildirilib ki, bu müddətdə bankın əməliyyat xərcləri 33 faiz artaraq 76,473 milyon manat təşkil edib, xərclərin gəlirə nisbəti isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 38,93 faizdən 37,13 faizə enib. Altı ayda kredit portfelində isə 8,8 faiz artım qeydə alınıb.




# "PAŞA Bank" ASC-nin Şuşada filialı açılacaq

Bu barədə PAŞA Bankın Komplayns və idarəetmə blokunun baş direktoru Anar Kərimov bankın altı ayın yekunlarına həsr olunmuş mətbuat konfransında çıxışı zamanı deyib. Onun sözlərinə görə, Qarabağda ilk filial Şuşa şəhərində fəaliyyətə başlayacaq. Gələn il aprelin sonlarına filialın inşaat işlərinin yekunlaşacağı gözlənilir. Baş direktor həmçinin 2024-2026-cı illəri əhatə edən dövrdə Lənkəranda da növbəti filialın açılmasının planlaşdırıldığını bildirib.

# "SOCAR Türkiye" "STAR" NEZ-in 2023-2024-cü illər üzrə məhsuldarlıq proqnozlarını paylaşıb

"Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Türkiyədəki "STAR" neft emalı zavodu (NEZ) 2023-cü ildə müsbət nəticələr nümayiş etdirir və gözlənildiyi kimi, 2024-cü ildə də bu uğurlu tendensiyanı davam etdirəcək".

Trend xəbər verir ki, bunu "SOCAR Türkiye"nin Neft Emalı və Neft-Kimya Müəssisələri Departamentinin rəhbəri vəzifəsini və "Petkim"in şirkətinin baş direktoru vəzifəsini icra edən Kənan Mirzəyev deyib. O "STAR" NEZ-in Türkiyədə emal edilən neft məhsullarının təqribən 25 faizini təmin etdiyini və daxili bazarda 19,5 faiz paya malik olduğunu qeyd edib.

"Zavod 2022-ci ildə uğurlu rentabellik göstəriciləri nümayiş etdirib. Bu göstəricilərin 2023-cü ildə də qüvvədə qalacağını deyə bilərəm. Xüsusən brent markalı neftlə digər regionların nefti arasındakı fərq zavodun göstəricilərinə təsir edərək planlaşdırıldığından daha yüksək EBITDA (faiz, vergi və amortizasiya xərcləri hesablanmazdan əvvəlki mənfəət) göstəricilərinin təmin edilməsinə səbəb olub. Bu uğurlu fəaliyyəti 2024-cü ildə də davam etdirməyə çalışırıq", - deyə K.Mirzəyev əlavə edib.

# Regionun ən böyük günəş elektrik stansiyası açılıb



Azərbaycan Respublikası Prezidentinin "Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində pilot layihələrin həyata keçirilməsi tədbirləri haqqında" 5 dekabr 2019-cu il tarixli sərəncamı ilə yaradılmış Komissiyanın növbəti iclası keçirilib.

Energetika naziri Pərviz Şahbazovun sədrliyi ilə keçirilən iclasda cari dövr ərzində görülmüş işlər barədə hesabatlar dinlənilib.

Nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə bərpa olunan enerjinin inkişafı sahəsində əldə olunan nailiyyətlər və perspektivlərdən danışıb.

O bildirib ki, yaxın günlərdə regionun ən böyük günəş elektrik stansiyası - "Qaradağ" GES istismara veriləcək. Həmçinin bildirilib ki, işğaldan azad edilmiş ərazilərin yaşıl enerji zonası kimi inkişafı üzrə işlər davam etdirilir, müvafiq sahədə müntəzəm monitorinqlər aparılır.

Naxçıvanın da ölkə başçısı tərəfindən yaşıl enerji zonası elan olunduğu qeyd edilərək, muxtar respublikada bərpa olunan enerji mənbələrinin xüsusi çəkisinin artırılmasını da özündə ehtiva edən 2023-2027-ci illər üçün sosial-iqtisadi inkişafa dair dövlət proqramının icrasından danışılıb. Eyni zamanda, yaşıl enerjinin Avropaya ixracı istiqamətində işlərin davam etdirildiyi bildirilib.

İclasda bərpa olunan enerji layihələri üçün dənizdə ərazilərin ayrılması, imzalanması nəzərdə tutulan sənədlər, yeni güclərin şəbəkəyə inteqrasiyası və digər məsələlər müzakirə olunub.

# "Birbaşa xarici investisiyaların təşviqinə dair strategiya hazırlanır"

"Beynəlxalq təşkilatlar tərəfindən keçirilən sorğuların nəticələrinə görə, Azərbaycanda biznes mühitinin daha da təkmilləşdirilməsi və investorların gözləntilərinin yaxşılaşması müşahidə edilir".

Bu barəd ə iqtisadiyyat naziri Mikayıl Cabbarovun "Azərbaycan" qəzetində dərc edilmiş "Azərbaycan: güclü iqtisadi potensialı olan qalib dövlət" məqaləsində bildirilir.

Məqalədə qeyd olunur ki, 154,1 milyard ABŞ dolları xarici investisiya olmaqla, 2003-2022-ci illər ərzində ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi 310,4 milyard dollar təşkil edib.

"2002-ci ildə iqtisadiyyata yönəldilən investisiyaların həcmi 2,8 milyard dollar idisə, 2022-ci il üzrə bu rəqəm 17,1 milyard dollar təşkil edib. 2003-2022-ci illər ərzində ölkə iqtisadiyyatına qoyulmuş birbaşa xarici investisiyaların (BXİ) həcmi 100,7 milyard dollar olub. Ölkədə investisiya mühitinin cəlbediciliyinin artırılması yönündə müxtəlif tədbirlər həyata keçirilir. Xarici investorlar üçün "vahid pəncərə" prinsipi tətbiq edilir və onlara müxtəlif istiqamətlər üzrə dəstək göstərilir. Həmçinin birbaşa xarici investisiyaların təşviqinə dair strategiya hazırlanır", - nazir qeyd edib.

# PAŞA Bankın 2023-cü ilin ilk 6 ayı üzrə bazar payı açıqlanıb

"30 iyun 2023-cü il tarixində PAŞA Bankın bazar payları - aktivlər üzrə 18.5%, müştərilərə verilən kreditlər üzrə 12.5%, o cümlədən korporativ kreditləşmə üzrə 25.3%, depozitlər üzrə 19.5% təşkil edib". Bu barədə keçirilən mətbuat konfransı zamanı bankın idarə heyətinin üzvü və baş maliyyə inzibatçısı Murad Süleymanov deyib. Onun sözlərinə görə, PAŞA Bankın müştərilərə verilən kreditlər üzrə bazar payı 2,4 faiz bəndi azalaraq 12.5%-ə, korporativ kreditləşmə üzrə bazar payı isə 2,1 faiz bəndi azalaraq 25,3%-ə düşüb.




Bildirilib ki, ölkə üzrə PAŞA Bank özəl banklar arasında aktivlərinə görə birinci, cəmi kapitalına görə isə ikinci yeri tutur.

# PAŞA Bankın Türkiyə və Gürcüstan filiallarındakı nizamnamə kapitalında payı azalıb



"PAŞA Bank" ASC-nin "PAŞA Bank Türkiyə"də nizamnamə kapitalındakı payı 51 faizdən 28 faizə, "PAŞA Bank Gürcüstan"dakı payı isə 100 faizdən 92 faizə enib. "Bu barədə PAŞA Bankın idarə heyətinin üzvü, baş maliyyə inzibatçısı Murad Süleymanov bankın altı ayın yekunlarına həsr olunmuş mətbuat konfransında çıxışı zamanı deyib. Onun sözlərinə görə, bu dəyişikliklər əsasən texniki xarakter daşıyır, bankın ümumi fəaliyyətinə heç bir təsiri yoxdur.

# Əmanətlərin Sığortalanması Fondu "Muğan Bank"ın ləğvedicisi təyin edildi

Bakı Apellyasiya Məhkəməsinin oktyabrın 24-də 2-3 (103)-54/2023 saylı qərarı ilə "Muğan Bank" ASC müflis elan edilib və iflas proseduruna başlanılıb. Bu barədə Əmanətlərin Sığortalanması Fondundan (ASF) bildirilib.

Qeyd olunub ki, Bakı Apellyasiya Məhkəməsinin qərarına əsasən Əmanətlərin Sığortalanması Fondu "Muğan Bank" ASC-nin ləğvedicisi təyin edilib.

Xatırladaq ki, Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin 18 oktyabr 2023-cü il tarixli qərarı ilə məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdarından az olduğuna, məcmu kapitalının adekvatlıq əmsalının 3%-dən az olmasına, cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyinə, habelə bankın daxili idarəetmə və nəzarət prosedurları adekvat olmadığına görə "Banklar haqqında" qanunun 16.1.6-cı, 16.1.7-ci, 16.1.9-cu, 16.1.18-ci, 57-ci və 61.1-ci maddələrinə əsasən




"Muğan Bank" ASC-nin lisenziyası oktyabrın 19-dan etibarən ləğv edilib, banka müvəqqəti inzibatçı təyin edilib və bankın müflisləşmə yolu ilə ləğv edilməsi barədə məhkəməyə müraciət olunub.

# Problemli kreditlərin məbləği azalıb

Bu il oktyabrın 1-nə Azərbaycanda vaxtı keçmiş kreditlərin məbləği 519,8 milyon manat təşkil edib. Trend-in Azərbaycan Mərkəzi Bankına istinadən məlumatına görə, bu, sentyabrın 1-i ilə müqayisədə 2,7% azdır.



Bununla belə, ölkədə problemli kreditlərin məbləği ilin əvvəlinə nisbətən 12,4%, son bir ildə isə 20% azalıb.

Bu il sentyabrın sonuna vaxtı keçmiş kreditlərin ümumi kredit portfelində xüsusi çəkisi 2,3% təşkil edib. Bu nisbət avqustun sonuna 2,4%, ötən ilin sonuna 2,9%, ötən il sentyabrın sonuna isə 3,3% olub.

# "Yaşıl maliyyə" üzrə prinsiplər hazırlanır

Bunu Mərkəzi Bankın Baş Direktoru Ziya Əliyev "2023-cü il Qlobal Dayanıqlı İnkişaf Məqsədləri (DİM) Sammitinin Nəticələri və DİM-lərin həyata keçirilməsində Ali Audit Qurumlarının rolu" mövzusunda 3-cü DİM Dialoqunda deyib.

"Biz burada digər mərkəzi bankların təcrübəsini yaxından öyrənirik. Bu prinsiplərin hazırlanması "Yaşıl maliyyə" üzrə əlahiddə tənzimləmə çərçivəsi formalaşdırmağa kömək olacaq", - deyə Z.Əliyev əlavə edib.



Qeyd edək ki, Bakıda "2023-cü il Qlobal DİM Sammitinin Nəticələri və DİM-lərin həyata keçirilməsində Ali Audit Qurumlarının rolu" üzrə Üçüncü DİM Dialoqu keçirilir. "DİM Dialoqu"na Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri, Azərbaycan Ali Audit Qurumu və BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi həmsədrlik edəcək.

# İqtisadiyyata kredit qoyuluşları 16%-dən çox artıb




2023-cü il oktyabr ayının 1-nə Azərbaycan iqtisadiyyatına banklar tərəfindən kredit qoyuluşları 22 281.9 mln. manat təşkil edib. Azərbaycan Mərkəzi Bankından bildirilir ki, bu, cari ilin sentyabr ayının 1-nə olan göstərici ilə müqayisədə 2.1% çoxdur. Ötən ilin eyni dövrü ilə müqayisədə isə iqtisadiyyata kredit qoyuluşları 16.3% və ya 3 mlrd. 124.7 mln. manat artıb.

Belə ki, 2022-ci ilin oktyabr ayının 1-nə kredit qoyuluşlarının həcmi 19157.2 mln. manat təşkil edib.

*Qarabağ uğrunda döyüşən qəhrəmanları unutmayaq!*

# Aslanov Şikar (1970-1992)

Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ müharibəsi şəhidi Şikar Davud oğlu Aslanov 1970-ci il iyun ayının 10-da Cəbrayıl rayonunun Süleymanlı kəndində doğulmuşdur. İlk təhsilini burada alan Şikar 1987-ci ildə məktəbi bitirir. 1988-ci ildə sovet ordusuna hərbi xidmətə çağırılır. 1990-cı ildə doğma vətənə dönərək DİN-in post patrul xidmətinə qəbul olunur. Erməni işğalçılarının vətənə basqını zamanı Şikar silaha sarılaraq cəbhəyə yollanır.



1992-ci ildə Xocavənd rayonunda gedən döyüşlərdə düşmənin atəş nöqtələrini peşəkarcasına susdurur.

***1992-ci il iyul ayının 2-si əməliyyat zamanı Şikar snayper gülləsinə tuş gəlir, cəsur döyüşçünü hospitala çatdırsalar da, onun həyatını xilas etmək mümkün olmur, vətənimizin igid oğlu əbədi olaraq gözlərini yumur.***

Doğulduğu Süleymanlı kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Aslanov Şikar Davud oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

# "Fitch" SOCAR-ın müstəqil kredit qabiliyyəti üzrə qiymətləndirilməsini yaxşılaşdırıb




"Fitch Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) uzunmüddətli emitentin defolt reytinqini (IDR) "BB+" səviyyəsində təsdiq edib.

Bu barədə agentliyin məlumatında deyilir. Reytinq üzrə proqnoz "müsbət"dir.

"Biz SOCAR-ın müstəqil kredit qabiliyyəti üzrə qiymətləndirilməsini onun daha güclü maliyyə profili fonunda "b+"dan "bb-"ə dəyişdik", - "Fitch Ratings" qeyd edir.

Bildirilib ki, aktivlərin bərpa reytinqi "RR4" səviyyəsində təsdiqlənib.

# "Mərkəzi banklar iqtisadi proqnozlarda 100% səhv edirlər"

JPMorgan Chase-in baş direktoru Ceymi Dimon mərkəzi bankları iqtisadi proqnozlarında "100 faiz səhv" etdiklərinə görə tənqid edib. O, "Gələn il baş verə biləcəklər barədə çox ehtiyatlı olardım" deyib.

Amerikanın qlobal maliyyə xidmətləri şirkəti "JPMorgan Chase"in Baş direktoru Ceymi Dimon (Jamie Dimon) iri mərkəzi bankların son vaxtlar pauza rejimində (gözləməkdə) olmalarını nəzərə alaraq, inflyasiyanın düşəcəyi proqnozu ilə sabit qalmağın iqtisadiyyat üçün təhlükələri barədə xəbərdarlıq edib.

ABŞ-ın ən böyük bankının sədri Dimon Ər-Riyadda Gələcək İnvestisiya Təşəbbüsü sammitində panel müzakirəsi zamanı deyib: "Mərkəzi bankların bir çox proqnozlarının 100 faiz səhv olduğunu qeyd etmək istərdim. Gələn il baş verə biləcəklər barədə çox ehtiyatlı olardım".

2022-ci ildə ABŞ Mərkəzi Bankı (FED) proqnozlarında inflyasiyanın artımının "müvəqqəti" olacağını israr edirdi, lakin inflyasiya qalıcı olub.

"Mən ehtiyatlıyam", - Dimon əlavə edib. O, mərkəzi bankların və hökumətlərin bütün bunları idarə edə biləcəyinə dair "hər şeyə qadir olduqları mesajı vermələrini" tənqid edib.

"Wall Street"in böyük hissəsi Fed-in 2023-cü ilin sonuna qədər faiz dərəcələrini daha bir dəfə artırıb-artırmayacağına yönəlib. Bununla belə, Dimon, "Faizlərin 0,25 bənd artırılıb-artırılmamasının fərq etməyəcəyini düşünmürəm... Sıfır kimidir", - deyib.

# Moody's İsrailin suveren reytinqini nəzərdən keçirir

Agentlik reytinqin aşağı salınmasını istisna etmir.

Beynəlxalq reytinq agentliyi Moody's İsrail hökumətinin xarici və yerli valyutada uzunmüddətli emitent reytinqlərini A1 səviyyəsində aşağı salmaq imkanı ilə nəzərdən keçirəcək. Reytinqin proqnozu "sabit"dir.

Bu barədə Moody's məlumat yayıb.




"İcmal münaqişənin ehtimal olunan müddəti və miqyasına, habelə onun İsrail institutları üçün nəticələrinin qiymətləndirilməsinə, xüsusən də siyasətlərin, dövlət maliyyəsinin və iqtisadiyyatın effektivliyinə diqqət yetiriləcək. Moody's münaqişənin həllinə doğru irəliləmə ehtimalını və ya uzun müddət ərzində əhəmiyyətli dərəcədə eskalasiya ehtimalını da qiymətləndirəcək", - Moody's-in açıqlamasında deyilir.

Oktyabrın 7-də HƏMAS üzvlərinin Qəzza zolağından İsrailə sızmasından sonra Yaxın Şərqdə vəziyyət kəskin şəkildə pisləşib. HƏMAS hücumu İsrailin Qüdsdəki Əl-Əqsa məscidinə qarşı hərəkətlərinə cavab adlandırıb. İsrail Qəzza zolağının tam blokadaya alındığını elan edib və oranı vurmağa başlayıb. İordan çayının qərb sahilində də toqquşmalar baş verir.

# Qlobal inflyasiya proqnozlarında nəzərəçarpacaq dərəcədə azalma

Dünya üzrə iqtisadçılar bu il və 2024-cü il üçün inflyasiyanın aşağı düşəcəyini gözləyirlər.

Almaniya İqtisadi Tədqiqatlar İnstitutu (İfo) və İsveçrə İqtisadi Siyasət İnstitutu (IWP) rübdə bir dəfə keçirilən "İqtisadi ekspertlər arasında sorğu"nun oktyabr ayı nəticələrini dərc edib.

Araşdırmaya görə, bu il üçün üç ay əvvəl 7 faiz olan qlobal inflyasiya proqnozu 6,2 faizə, gələn il üçün 6 faizdən 5,2 faizə, 2026-cı il üçün isə 4,9 faizdən 4,5 faizə enib.

Bundan əlavə, regiondan asılı olaraq iqtisadçılar inflyasiya dərəcələrində böyük fərqlər



proqnozlaşdırırlar. Bu il üçün inflyasiya gözləntiləri Qərbi Avropa üçün 4,6 faiz, Şimali Amerika üçün 4,1 faiz və Cənub-Şərqi Asiya üçün 4,7 faiz olmaqla qlobal orta göstəricidən aşağı olub .

Digər tərəfdən, 2023-cü il üçün inflyasiya gözləntiləri Cənubi Asiya üçün 17,1 faiz, Cənubi Amerika üçün 20,5 faiz, Şimali Afrika üçün 55,5 faiz və Şərqi Afrika üçün 36,5 faiz olmaqla qlobal ortalamanın üzərindədir.

Ifo araşdırmaçısı Niklas Potrafke öz qiymətləndirməsində, "İnflyasiya gözləntiləri hələ də yüksək olsa da, əvvəlki rüblə müqayisədə əhəmiyyətli dərəcədə azalıb", - deyib.

Potrafke qeyd edib ki, iqtisadçılar hələ də 2026-cı il üçün inflyasiyanın Qərbi Avropada 2,4 faiz, Şimali Amerikada isə 2,7 faiz olacağını gözləyirlər.

Sentyabrın 26-dan oktyabrın 11-dək keçirilən sorğuda 128 ölkədən 1541 iqtisadçı iştirak edib.

# Mərkəzi Gömrük Hospitalında təhsil alan rezident-həkimlər və onların kuratorları ilə görüş keçirilib

18 oktyabr 2023-cü il tarixində Mərkəzi Gömrük Hospitalında təhsil alan birinci il rezident-həkimlər və onların kuratorları ilə görüş keçirilib. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, t.e.d., əməkdar həkim, ürək-damar cərrahı Rəşad Mahmudov, Mərkəzi Gömrük Hospitalının rəisi Bəxtiyar Musayev, rəis müavini Nabil Seyidov, rezident- həkimlərin kuratorları, rezident-həkimlər və digər əməkdaşlar iştirak ediblər.




Mərkəzi Gömrük Hospitalında rezidenturaya yeni qəbul olunmuş rezidentləri təbrik edən Dr. İsmayıl Əfəndiyev onların Mərkəzi Gömrük Hospitalının təcrübəli həkimlərinin yanında fəaliyyət göstərməklə yüksəkixtisaslı həkim kimi yetişməsi, təcrübə qazanması, bilik və bacarıqlarını artırması, dünya səhiyyə sisteminin ən yeni nailiyyətlərini öyrənmələri və elmi araşdırmalarla məşğul olmaları üçün yaradılacaq imkanlar barədə məlumat verib. Dr.İsmayıl Əfəndiyev yeni rezidentlərə Mərkəzi Gömrük Hospitalında işlədikləri müddət ərzində beynəlxalq mübadilə proqramlarında iştirak etmək, tədris proqramının yaxşı mənimsənilməsi və kuratorlarla münasibətlərin düzgün qurulması ilə bağlı məsləhətlər verib.

Dr. İsmayıl Əfəndiyev həmçinin, Mərkəzi Gömrük Hospitalında təhsil alan bütün rezidentlərin ölkəmizdə və beynəlxalq konfranslarda, konqreslərdə, rotasiyalarda iştirak etmək üçün Tibbi Xidmət İdarəsi Elmi-Təcrübi və Tədris Mərkəzinin edəcəyi kömək və töhfələrdən danışıb. DGK Tibbi Xidmət İdarəsinin rəis müavini rezidentlərin gələcəkdə peşəkar həkim kimi yetişməsində əhəmiyyətli rol oynaya biləcək bu elmi konfranslarda fəal iştirak etməyi və elmi araşdırmalarda aktiv olmalarını tövsiyə edib.

Mərkəzi Gömrük Hospitalının rəisi Bəxtiyar Musayev 15 il müddətində Hospitalın əhaliyə yüksəkixtisaslı və peşəkar tibbi xidmət göstərməsi, hazırda burada tətbiq olunan yüksək tibbi texnologiyalar sayəsində xəstələrin sağlamlığını qorumağa tam şəkildə imkan verməsi, habelə həyata keçirilən unikal əməliyyatlar haqqında danışıb.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi Tədris Mərkəzinin rəisi, tibb elmləri doktoru, ürək-damar cərrahı Dr.Rəşad Mahmudov çıxışında bildirib ki, rezident-həkim 1 il müddətində işlədiyi şöbənin işini öyrənməlidir. Dr.Rəşad Mahmudov deyib: "Rezidentura həkim-rezidentlərə verilən bir fürsətdir, bu zamanı itirmək olmaz, çünki həkimlik sənəti əzmkarlıq tələb edən sənətdir. Gələcək həkim əməksevər olmalı, gecə-gündüz pasiyentin yanında olmalı, xəstə ilə zaman keçirməlidir və xəstələrə eyni cür yanaşmalıdırlar".

Mərkəzi Gömrük Hospitalının rəis müavini Nabil Seyidov rezidentlərə xarici ölkə universitetlərində rotasiyalar üçün müraciət qaydalarını izah edib. Dr.Nabil Seyidov qeyd edib ki, həkim-rezidentlər bu gün daha çox şöbələrdə, xəstələrin yanında, əməliyyatxanalarda olmalıdırlar. Qarşısına yaxşı həkim olmağı məqsəd qoyan rezidentlər həqiqətən həkim kimi yetişmək üçün həm nəzəri biliklərə, həm də praktiki vərdiş və bacarıqlara yiyələnməlidirlər. Bunun üçün də çəkinmədən Hospitalın həkimlərinə, kuratorlara yanaşmalı, onlardan öyrənməlidirlər.

Daha sonra Mərkəzi Gömrük Hospitalının Kardiologiya şöbəsinin rəisi, invaziv kardioloq İlqar Tahiroğlu, mama-ginekoloq Sədi Allahverdiyev, psixiatr Gülay Məmmədzadə, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin mütəxəssisi Şəhla Mirzəzadə çıxış edərək, həkim-rezidentlərə tövsiyələrini veriblər.

Tədbirin sonunda rezident-həkimlərlə qarşılıqlı fikir mübadiləsi aparılıb, onların problemləri dinlənilib və məsləhətlər verillib. Qeyd edək ki, Mərkəzi Gömrük Hospitalında 2018-ci ildən yaradılmış rezidentura təhsilinin əsas məqsədi gələcəkdə işinin peşəkarı, yüksək nəzəri və təcrübi biliklərə malik, savadlı həkimlər yetişdirməkdir.

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**




**Azəri Light və Brent markalı neftin bir barelinin 19 – 25 oktyabr tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə müdafiə sənayesi nazirinin müavini
Mehman Baxışova həyat yoldaşı
**MEHRİBAN XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Fuad Hacızadə və professor Elşən Hacızadə müdafiə sənayesi nazirinin müavini Mehman Baxışova həyat yoldaşı
**MEHRİBAN XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**